Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ağdam
# Qafqazın Xirosiması (Ruhlar şəhəri)

*Respublika Uşaq kitabxanaları
üçün tövsiyə biblioqrafiyası*

**Bakı-2021**

**Tərtibçi:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Ağdam-Qafqazın Xirosiması:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və buraxılışa məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2021.- 20 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçidən

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı xalqımıza məxsus yüzlərlə daşınmaz tarix, mədəniyyət və dini abidələr dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edilərək vandalizmə məruz qalıb.

Respublikamızın dilbər guşələrindən olan Ağdam rayonunun ərazisi də tarixi, mədəniyyət və memarlıq abidələri, kurqan, məbəd, çoxlu sayda qəbirüstü abidələrlə zəngindir.

Belə ki, rayon ərazisində 4 dünya, 3 ölkə, 130 yerli əhəmiyyətli memarlıq və arxeoloji abidə vardır.

Lakin erməni vandalları tərəfindən bu şəhər o qədər dağıdılıb ki, xarici jurnalistlər bu gün Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. 1980-ci illərin sonlarında 40 min əhalisi olan Ağdam bu gün "ruhlar şəhəri"nə çevrilibdir.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi "Ağdam-Qafqazın Xirosiması" adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** info@clb.az.

## Giriş

Ağdamlılara mənim daim xüsusi hörmətim və qayğım olubdur. Hələ 70-ci illərdə mənim burada işlədiyim zaman Ağdama nə qədər çox diqqət göstərilmişdir. Ağdamda nə qədər böyük işlər görülmüşdür – həm şəhərin qurulması, yaradılması, həm qəsəbələrin abadlaşdırılması, həm Ağdamın iqtisadiyyatının inkişaf etdirilməsi baxımından. Ağdamın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf edirdi. Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. Çünki Ağdamın çox gözəl torpağı var, çox gözəl təbiəti var, çox fədakar, zəhmətkeş insanları var. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır. Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər. Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etdirilməsində fəal iştirak etmişlər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

"Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız".

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycanın işğala məruz qalmış ərazilərində erməni vandalları tərəfindən məhv edilən maddi-mədəniyyət abidələri milli sərvətimizdir. Bu abidələr təkcə maddi mədəniyyət deyil, həm də mənəviyyat tariximizin səhifələridir. Qarabağın tarixi abidələrinin darmadağın edilməsi isə tariximizin daşlaşmış yaddaşının silinməsi kimi ağrı-acılıdır. Təbii-coğrafi baxımdan res-

publikamızın ən zəngin bölgələrindən olan Ağdam həm də xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən müxtəlif abidələr diyarıdır. Aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu yerlərdə insanlar təxminən 8-10 min il bundan əvvəl məskunlaşmışlar.

Ağdam şəhərində Üzərliktəpə abidəsi, Kəngərlidəki XIV əsrin yadigarı - daş abidələr, Papravənddəki Xanoğlu türbəsi, məscid, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş türbə, Şahbulaq qalası... kimi tarixi-memarlıq abidələri Ağdamın işğalı zamanı dağıdılıb məhv edilib. Buradakı abidələr müxtəlif dövrləri əks etdirən nadir nümunələr idi. Bu maddi-mənəvi sərvət qruplaşdırılaraq Azərbaycan Respublikasının ərazilərində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba daxil edilib.

Ağdamda işğaldan əvvəl 148 ümumtəhsil, bir orta ixtisas musiqi məktəbi, 24 klub, Dövlət Dram Teatrı, Muğam məktəbi, Çörək muzeyi, Şəkil qalereyası, tarix-diyarşünaslıq muzeyi, Qurban Pirimovun ev-muzeyi, 69 səhiyyə müəssisəsi fəaliyyət göstərib.

Bunlardan başqa rayonda dini, tarixi və mədəniyyət abidələri də az deyildi. Onlardan biri də Pənahəli xanın imarətidir. Bu abidə Ağdam şəhəri yaxınlığında, dağınıq şəkildə dövrümüzə qədər gəlib çatmış iki binadan ibarət olub. Çox güman ki, ilkin çağında bu kompleksə daha çox bina daxil imiş. Kompleksin Pənahəli xanın 1738-ci ildə Xorasandan – Nadir şahın xidmətindən uzaqlaşıb Qarabağda xanlıq quruculuğuna başladığı ilk illərdə inşa edildiyi bildirilir. İmarətin binaları dəbdəbəli xan iqamətgahı olmayıb, XVIII əsrin Qarabağ bölgəsi zənginlərinin yaşayış evləri kimidir. İmarətin nisbətən böyük ölçülü əsas binası

planda bir qədər mürəkkəb quruluşlu, müxtəlif ölçülü otaqlardan ibarət olub.

Pənahəli xanın məqbərəsi və oğlu, Qarabağ xanı İbrahimxəlil xana məxsus türbə Ağdamın İmarət qəbiristanlığında yerləşirdi.

Buradakı dini mərkəzlərdən sayılan tarixi məbədlərdən biri də Ağdam Cümə məscidi idi. Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilmişdi. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscid iki minarəli və ikimərtəbəlidir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür.

Mərkəz gümbəzə dayaq olan dörd sütun daxili məkanın həm tən ortasında kvadrat, həm də yan tərəflərdə iki mərtəbəli eyvanlar yaradır. İbadət zalına baxan və qadınlar üçün nəzərdə tutulan bu eyvanlar da öz növbəsində yuxarıdan gümbəzlərlə örtülür. Burada da az qala hər detalda İslam incəsənəti üçün mühüm olan mürəbbe (dördbucaqlı) və dairə münasibətlərinə rast gəlmək olar. İbadət zalı mehrabın kənarlarından və eyvanlardan açılan pəncərələrlə işıqlandırılır. Mehrab tağçasının üzərində binanın dekor tərtibini verən ustad Məhəmməd Nəqqaş Təbrizinin adı və təmir olunduğu il, hicri təqvimlə 1331-ci il (miladi 1913) tarixi həkk olunmuşdur. Mənbələrdə göstərilir ki, Ağdam Cümə məscidinin divarlarını ilkin variantda Kərbəlayi Səfixanın dostu nəqqaş Məhəmməd Şükuhi işləmişdir. Məscidin giriş qapısı Səfəvi memarlığı üçün xarakterik olan iri tağ portalın içindədir.

Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və Azərbaycan memarlığının incilərindən sayılan Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozul-

muşdur. Abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə Ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir. Cümə məscidinin bugünkü vəziyyəti 1954-cü ildə qəbul edilmiş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” Haaqa Konvensiyasının ermənilər tərəfindən pozulduğunu bir daha təsdiqləyir.




Ağdamın məşhur Çörək muzeyinin adı dillər əzbəri idi. 1983-cü ilin noyabr ayında fəaliyyətə başlayan bu bərəkət məbədi dünyada ikinci, keçmiş SSRİ-də isə birinci və yeganə çörək muzeyi idi. Burada toplanan eksponatlar arasında daşlaşmış qədim taxıl nümunələri, nadir dənli bitki növləri, taxılçılığın inkişafına aid çoxsaylı qiymətli kitablar, əlyazmalar, lazımlı və çox əhəmiyyətli materiallar - qədim əkinçilik alətləri: xış, adi və dişli oraq, taxıldöyən vərdənə, əl dəyirmanı və başqa alətlər qədim əkinçilik sənətindən soraq verirdi.

Muzeyin çox maraqlı tarixçəsi var idi. Deyirlər ki, şəhərin mərkəzində xarabaya çevrilmiş köhnə bir dəyirman olub. Ötən əsrin ortalarında, daha doğrusu, İkinci Dünya müharibəsinin ağır illərində həmin dəyirman Ağdamın yeganə çörək təknəsinə çevrildiyindən ora müqəddəs məkan kimi baxıblar. Sonradan bu dəyirmanın Çörək muzeyi kimi fəaliyyət göstərməsi ideyasını hamı bəyənib. Məşhur seleksiyaçı alim, akademik İmam Mustafayev

muzeyin eksponatlarını şəxsi taxıl kolleksiyası hesabına zənginləşdirib. Yüzə qədər xalqın çörək nümunələri burada toplanmışdı. Əfsanəni xatırladan bir hadisə daha maraqlı və həm də muzeyin müqəddəsliyini təsdiq edirdi: Leninqrad (Sankt-Peterburq) blokadasının iştirakçısı, milliyyətcə rus olan bir qadın muzeyin sorağını eşidəndə acından ölüm ayağında belə yeməyib saxladığı, kömürləşmiş 150 qramlıq çörək payını gətirib muzeyə vermişdi. Muzeyə hətta Kosmonavt şəhərciyindən çörək nümunələri göndərilmişdi. Qısa müddətdə 2 minə yaxın taxıl nümunəsi toplanmış belə bir müqəddəs muzey də ermənilər tərəfindən yer üzündən silindi: 1992-ci il avqust ayının 12-də ermənilərin atdığı "Qrad" mərmisi Çörək muzeyinin külünü göyə sovurdu. İllərdir ki, xaraba qalan muzeyin şəklini xarici ölkə jurnalistləri çəkərək müxtəlif saytlarda yerləşdirirlər.





Ağdam şəhərindəki "Çay evi"nin də şöhrəti təkcə bölgəyə, yaxud respublikaya deyil, yaxın-uzaq diyarlara yayılmışdı. 1986-cı il iyul ayının 26-da açılan "Çay evi"nin layihəsinin müəllifi 1984-1988-ci illərdə Ağdamda baş memar işləyən Natiq Səmədov olub. Erməni quldur dəstələrinin tarmar edib dağıtdığı "Çay evi"nin də adı yaddaşlarda yaşayır.

Rayonun Xaçındərbətli kəndindəki Elxanilər dövrünə aid xatirə memarlığının dəyərli bir abidəsi də qalmışdı ki, el arasında

“Sarı Musa türbəsi” adlanırdı. Abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülüdür. Bu abidənin əsas məziyyəti onun həcmində deyil, bu ənənəvi quruluşun özünəməxsusluğundadır. Xaçındərbətli abidəsində yeraltı hissənin varlığı onun qülləvari türbələr qrupuna daxil edilməsinə əsas verən başlıca əlamətdir. Abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin və istərsə də xaricindəki səthlərin işlənməsi binaya təkrarolunmaz bir fərdi xüsusiyyət verir. Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabə, onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Qutlunun məzarı üzərində tikildiyini göstərir. Xaçındərbətli abidəsinin ən zəngin hissəsini giriş səthinin memarlığı və onun daxili günbəzinin stalaktitli quruluşu təşkil edir. Xarici səthlər çox da dərin olmayan batıqlarla işlənmiş və bu batıqların yuxarı hissəsi tağlara bağlanmışdır. Abidənin ümumi kompozisiya görünüşündə əhəmiyyətli bir ünsür də onun piramida şəkilli günbəzinin üzlüyünü təşkil edən daş tavalardan düzəldilmə örtükdür. Xaçındərbətli abidəsinin giriş səthində və daxilində olan heyvan təsvirləri də son dərəcə diqqəti cəlb edir. Onların içərisində vəhşi heyvan təsvirləri xüsusilə qeyd olunmalıdır. Azərbaycan memarlığı abidələri içərisində bu təsvirləri xatırladan nümunələr Bakıda, Bayıl qalasının (XIII əsr) üzərində də var. Xaçındərbətli abidəsinin daxili günbəzi Şirvan memarlığının daşdan oyma stalaktit kompozisiyalarını xatırladır. 1993-cü ildə Ağdamın işğalından sonra ermənilər türbədəki divar rəsmlərini və divar daşları üzərindəki yazıları silərək yerinə kiçik xaç şəkilləri pərçimləyiblər.



İllərdir ki, Ağdam ərazisindəki maddi-mədəniyyət abidələri erməni qəsbkarlarının vandalizm siyasətinin şahididir. Daşnaklar və onların havadarları muzeylərdəki eksponatları nəinki talayıb aparmış, hətta həmin abidə-məbədlərin daşını daş üstə qoymamışlar. Bütün bu faktlar isə illərdən bəri beynəlxalq müşahidəçi qismində Qarabağa səfər edən təşkilatların təmsilçilərinə yaxşı məlumdur, çünki vaxtaşırı verdikləri hesabat-məruzələrində öz əksini tapmışdır. Təkcə mədəniyyətimizi deyil, tariximizin bir parçasını sinəsində saxlamış həmin abidələrdən sayılan Xanoğlan türbəsi də daşnak quldur dəstələri tərəfindən dağıdılıb.

Ağdamda təkcə maddi-mədəniyyət ocaqları deyil, dini məbədlər də düşmən tərəfindən yerlə yeksan edilib. Papravənddəki Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar da dağıntıya məruz qalıb. Təsəllimiz odur ki, Ağdam Tarix-Ölkəşünaslıq Muzeyi rayonun işğaldan kənarda qalan Qaradağlı kəndində bərpa edilib qorunur.

Qoca tarix çox belə talanların və dağıntıların şahidi olub. Dağıdılmış, talan edilmiş qədim yaşayış məntəqələrindəki mədəniyyət və mənəviyyat abidələrimizin yenidən bərpası isə bir vətəndaşlıq borcu kimi bugünkü nəslin üzərinə düşür.

# Ə d ə b i y y a t

## Kitablar


### 2003

**1.Ağdam ağrıları:** [məlumat kitabı] /Baxşeyiş Abbasoğlu; red. Vasif Quliyev.-Bakı: Şuşa, 2003.-152 s.

https://drive.google.com/file/d/1x17Nt3UZ-2caUeVlswjZEb4m90CE3f_e/view

### 2011

**2.Ağdam - Qafqaz Xirosiması, Ruhlar şəhəri** [İzomaterial] : [kataloq]: [Kitabda Ağdam şəhərinin müharibədən əvvəlki vəziyyəti, erməni işğalçıları tərəfindən işğalı və indiki durumu öz əksini tapıb] /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; "İnam" Plüralizm Mərkəzi. Aghdam - Caucasian Hiroshima, the Ghosts city Агдам – Кав-казская Хиросима, город Духов.- Bakı: Təhsil, 2011.- 56 s.: portr., fotoşək.

**3.Ağdam çörək muzeyi: dünəni, bu günü və sabahı** [Kitab təkcə Ağdam Çörək Muzeyi, onun yaradılması, fəaliyyəti və düşmən əlində məhv olması barədə deyil, həm də Ağdamın tarixi, insanları, abidələri, mədəniyyət ocaqları haqqında dəyərli nəşrdir] /V.Tofiqli; red. F.Uğurlu; məsləhətçi Ç. Əliyeva.-Bakı: Adiloğlu, 2011.-139, [1] s.

### 2014

**4.XX yüzilin Ağdamı** /V. Tofiqli; ön söz R. Məcid.-Bakı: MHS-Poliqraf, 2014.-223, [1] s.

**2015**

**5.Ağdamım canım, qanım Doğma Azərbaycanım** /Rizvan Axundov.-Bakı: “Apostroff”, 2015.-160 s.
https://drive.google.com/file/d/1YL9ijO07yAeLsXoVKhOUxU2p5PK2ytDp/view

**6.İşğal altındakı tarixi-dini abidələrimiz:** [Kitabda işğal altındakı tarixi-dini abidələrimiz verilmişdir.] /N.Məmmədov; red. G. İsmayılov; ön söz müəl. M. Qurbanlı; Azərb. Resp. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi.- Bakı: Nurlar, 2015.- 95, [1] s.

https://www.qafqazislam.com/userfiles/Abideler.pdf

## Məqalələr

### 2009

**7.Ağdam indi əvvəlkindən də güclüdür** /Həsən Sarıyev //Xalq qəzeti.- 2009.- 23 iyul.- S.6.
http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyul2009/86894.htm

### 2010

**8.Ağdam rayonu** //Mədəni-maarif.-2010.- №8. - S.53-56.
http://www.anl.az/down/meqale/medeni_maarif/8_2010/22(meqale).pdf

**9.“Ağdam - Qafqaz Xirosiması və ruhlar şəhəri” fotosərgisi açılmışdır** //Azərbaycan.- 2010.- 24 iyul. - S. 6.
http://www.anl.az/down/meqale/azerbaycan/2010/iyul/128600.htm

**10.Ağdamda yeni arxeoloji materiallar aşkar edilib:** [Ağdam rayonunun "Palıdlı" nekroloqunda e.ə. XII-XI əsrlərə aid bir neçə torpaq qəbir aşkar edilmişdir] // Mədəniyyət.- 2010.- 20 avqust.- S. 4.
http://www.anl.az/down/meqale/medeniyyet/2010/avqust/130782.htm

**11.İşğal olunmuş abidələr** /Məhəmməd Nərimanoğlu //Azərbaycan.- 2010.- 23 iyul.- S.6.
http://anl.az/down/meqale/azerbaycan/2010/iyul/128468.htm

**12.Sağ qalan ləpirlər: Ağdam turistlər arasında maraq doğuran 20 ruhlar şəhərindən biridir** /V.Qazi //525-ci qəzet.- 2010.- 22 may .- S.8.
http://www.anl.az/down/meqale/525/2010/may/120832.htm

**2011**

**13.Ağdam ağrısı** /H. Həsənli //Ədalət.-2011.- 16 aprel.- S. 20.

**14."Ağdam Çörək Muzeyi":** dünəni, bu günü və sabahı" /S.Əzimov //Təzadlar.- 2011.- 13 dekabr.- S. 7.

**15.Ağdam Qarabağın dayağı idi** /Bəxtiyar Qaraca //Azərbaycan.- 2011.- 23 iyul.- S.4.

**16.Ağdam Qarabağın musiqi beşiyidir** /Lazım Quliyev // Azərbaycan .- 2011.- 6 noyabr.- S.3.

**17.Ağdam və ağdamlılar...** /Amil Quliyev //Təzadlar.- 2011.- 23-25 avqust.- S. 9.

**18.Milli mədəniyyət tariximizdə iki mötəbər ünvan – Şuşa və Ağdam teatrları** /Günel Cabirqızı //525-ci qəzet.- 2011.- 17 mart.- S. 6.
http://www.anl.az/down/meqale/525/2011/mart/163935.htm

**2012**

**19.Ağdam ağrısı:** [Xəyalımdakı və xatirəmdəki Ağdamı və ağdamlı günləri xatırlayarkən] /R.Məmmədzadə //Təzadlar.- 2012 .- 5 iyul.- S.12-13.

**20.Ağdamın tarixi memarlıq və arxeoloji abidələri erməni vəhşiliyinin qurbanına çevrilmişdir** // Azərbaycan.- 2012.- 24 iyul .- S. 3.
http://www.anl.az/down/meqale/azerbaycan/2012/iyul/591.htm

**2013**

**21.Ağdam yürüşü: ruhların, əsaların, qazilərin görüşü...** //525-ci qəzet.-2013.- 3 avqust.- S. 7.
http://www.anl.az/down/meqale/525/2013/avqust/320715.htm

**22.Ağdamın ağ damları** /Bahadur İmanquliyev //Azərbaycan .-2013.- 24 iyul.- S.4.
http://www.anl.az/down/meqale/azerbaycan/2013/iyul/319496.htm

**23.Ağdamda yeni arxeoloji materiallar aşkar edilmişdir** [Eyvazlı kəndi yaxınlığındakı İsmayılbəy təpəsində - Neolit-Eneolit dövrü yaşayış məskənində arxeoloji qazıntı zamanı yeni tarixi materiallar aşkarlanmışdır] //Azərbaycan.- 2013.- 8 avqust.- S.12.
http://www.anl.az/down/meqale/azerbaycan/2013/avqust/321193.htm

**24.Qarabağın vuran ürəyi Ağdam** /Saxavət Məmmədli //Ədalət.- 2013.- 24 may.- S.7.; 25 may.-S.4.
http://www.anl.az/down/meqale/adalet/2013/may/311379.htm
http://www.anl.az/down/meqale/adalet/2013/may/311688.htm

## 2014

**25.Ağ damların həsrəti** /Bəxtiyar Qaraca //Azərbaycan.-2014 .- 24 iyul.- S.3.
http://www.anl.az/down/meqale/azerbaycan/2014/iyul/384910.htm

**26.Ağdamın "Əliverdilər" kəhrizi** / Vüqar Tofiqli //525-ci qəzet.-2014.- 27 may.- S. 2.
http://www.anl.az/down/meqale/525/2014/may/372797.htm

**27.Ağrılı və qürurlu yaddaş, yaxud Azərbaycanın Ağ Damı...** /Firuzə Nadir //Ədalət.- 2014.- 23 iyul.- S.4.
http://www.anl.az/down/meqale/adalet/2014/iyul/384741.htm

**28.Mənəvi və maddi dəyərlərin nisgilli ünvanı - Ağdam:** /Salman Alıoğlu //525-ci qəzet.- 2014.- 24 iyul.- S.4.
http://www.anl.az/down/meqale/525/2014/iyul/384965.htm

**2015**

**29.Ağdam: barıt qoxulu torpaq** /S.Alıoğlu //Respublika.- 2015 .- 23 iyul.- S.6.

**30.Erməni vandallarının məhv etdiyi maddi-mədəniyyət abidələri** /Məhəmməd Nərimanoğlu //Azərbaycan.- 2015.- 8 avqust.- S.5.
http://www.anl.az/down/meqale/azerbaycan/2015/avqust/450782.htm

**2016**

**31.Ağdam "mədəniyyət beşiyi" adını inamla doğruldur** /Lazım Quliyev //Azərbaycan.-2016.- 1 iyun.- S. 8.
http://www.anl.az/down/meqale/azerbaycan/2016/iyun/493532.htm

**2018**

**32.Ağdam-Ağ günlərimizin qara çözümü:** Ömrümün Qarabağ səhifəsi /Ə. Qonaq //Olaylar.-2018.- 24 iyul.- S.4.
http://www.anl.az/down/meqale/olaylar/2018/iyul/600520.htm

**33.İki Ağdam:** Biri ağ günlərini yaşayır, digəri qara günlərdən xilasını gözləyir /Bahadur İmanquliyev //Azərbaycan.-2018.-7 noyabr.- S.1; 3.
http://www.anl.az/down/meqale/azerbaycan/2018/noyabr/615877.htm

**2019**

**34.Ağdamlılar doğma torpaqlarının işğal altında qalması ilə heç vaxt barışmayacaqlar:** [Ağdamın tarixi memarlıq və arxeoloji abidələri erməni vəhşiliyinin qurbanına çevrilib] /F.Hüseynzadə //Palitra.-2019.- 24 iyul.- S.7.
http://www.anl.az/down/meqale/palitra/2019/iyul/665628.htm

**35.Əsir Ağdam məscidi** /Bəxtiyar Sadıqov //Azərbaycan.- 2019.- 23 iyul.- S.6.
http://www.anl.az/down/meqale/azerbaycan/2019/iyul/665684(meqale).pdf

## 2020

**36. "Ağdam bizim üçün Məkkədir, qibləgahdır"-Mənsum İbrahimov** //Unikal.- 2020. - 21 noyabr. - S. 24.

**37.Ağdam Çörək Muzeyi** //Mədəniyyət.- 2020.- 9 oktyabr.- S.5.

**38.Ağdam Çörək Muzeyi** /R.Salmanlı //Azərbaycan.-2020.- 1 dekabr.- S.11.

**39.Günəş şüaları ilə nurlanmış ağ evim...:** [Ağdam rayonunun tarixi abidələri haqqında] /Nurəddin Məmmədli //Mədəniyyət.-2020.- 20 noyabr.- S.1;6.
http://www.anl.az/down/meqale/medeniyyet/2020/noyabr/729036.htm

**40.Prezident İlham Əliyev: [**İndi Ağdam üçün yeni dövr başlayır] /V.Bayramov //Xalq qəzeti.-2020.- 21 noyabr.- S.9.
http://www.anl.az/down/meqale/xalqqazeti/2020/noyabr/729017.htm

**41.Şahbulaq qalası** /A.Sahəd //525-ci qəzet.-2020.- 24 iyul.- S.16.
http://www.anl.az/down/meqale/525/2020/iyul/722883.htm

## 2021

**42.34 il sonra Ağdamda:** [müəllifin Ağdamdan səfər təəssüratı] /M.Məcid //525-ci qəzet.-2021.- 17 mart.- S.13.
http://www.anl.az/down/meqale/525/2021/mart/739422.htm

**43.Ağdam: "İkinci Xirosima adlanan "Ruhlar şəhəri"** /Xuraman İsmayılqızı //İki sahil.-2021.- 10 aprel .- S.26.

http://www.anl.az/down/meqale/iki_sahil/2021/aprel/740990(meqale).pdf

**44.Ağdama qayıdış** [müəllifin, yazıçının Ağdamdan səfər təəssüratı] /Y.Oğuz //525-ci qəzet.-2021.- 20 mart.- S.9.
http://www.anl.az/down/meqale/525/2021/mart/739374.htm

**45.Cənnət Ağdamın cəhənnəm xarabalıqları:** [O xarabalıqlar yenidən abad, gözəl, varlı, qüdrətli şəhərə çevriləcək] / Ramilə Qurbanlı //Azərbaycan.-2021.- 21 aprel.- S.1; 7.

**46.Düşmən Pənahəli xanın tikdirdiyi Şahbulaq qalasını özünküləşdirməyə çalışsa da, buna nail ola bilməyib** // Azərbaycan.- 2021.- 2 may.- S.2.

**47.Erməni vandallar Ağdamı qara günə qoyublar... [**İşğal zamanı şəhər və kəndlər beşqat talan və dağıntıya məruz qalıb] /Tahir Aydınoğlu //Xalq qəzeti.-2021.- 18 aprel.- S.5.

**48.Ermənilər Ağdam Cümə məscidində mal-qara və donuz saxlayaraq müsəlman aləmini təhqir edib** //Azərbaycan.-2021.- 2 may.- S.2.

**49.Ermənilər Ağdamın Şəhidlər xiyabanındakı qəbirləri qarət məqsədilə qazaraq dağıdıblar** // Azərbaycan.- 2021.- 2 may.- S.2.

**50.Gürcü telejurnalist: “Ağdamda dini və mədəniyyət ocaqları məhv edilib”** [“Tv Pirveli” telekanalının müxbiri Miranda Baqaturiyanın Ağdamdan hazırladığı reportaj haqqında] //Azərbaycan.-2021.- 5 mart.-S.5.
http://www.anl.az/down/meqale/azerbaycan/2021/mart/737102.htm

**51.İlham Əliyev: “Ağdam müasir arxitekturalı şəhər olaraq yenidən qurulacaq”** / Rüstəm Hacıyev // Ədalət.- 2021.- 26 yanvar.- S.7**.**

http://www.anl.az/down/meqale/adalet/2021/yanvar/731927(meqale).pdf

**52.Qaranlıq Ağdam azadlığın işığında** /E.Babayev //Xalq Cəbhəsi.-2021.- 16 mart.- S.4.
http://www.anl.az/down/meqale/xalqcebhesi/2021/mart/738239.htm

**53.O divarlar, daşlar sanki dilə gəlmişdi və öz nisgilini bizə çatdırırdı"** / Hacı Şahin Həsənli; müsahibəni apardı: Ş.Əlizadə //Xalq qəzeti.- 2021.- 11 aprel.- S.4.
http://www.anl.az/down/meqale/xalqqazeti/2021/aprel/740483(meqale).pdf

**54.Salam Ağdam, biz bu dəfə həmişəlik gəldik!** [media qurumlarının Ağdam şəhərinə səfəri barədə] //Səs.-2021.- 16 mart .-S.8,9.
http://www.anl.az/down/meqale/ses/2021/mart/02.htm

**55.Ukraynalı jurnalist: Ağdam və Füzuli şəhərində gördüklərim çox dəhşətli idi** //Səs.-2021.- 11 mart.- S.2.
http://www.anl.az/down/meqale/ses/2021/mart/737669(meqale).pdf

**Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi:**

**Ağdam -Qafqazın Xirosiması-2021**
(tövsiyə biblioqrafiyası)

**Komputer yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan: AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**